Dekabrın 23-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə “Rəqəmsal mühitdə uşaqların müdafiəsi: müasir alətlər və beynəlxalq əməkdaşlıq” mövzusunda beynəlxalq konfransın açılış mərasimi keçirilib.

Açılış mərasimində elm və təhsil nazirinin müavini Firudin Qurbanov iştirak edib.

Konfransda açılış nitqi ilə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, uşaqların rəqəmsal mühitdə müdafiəsi insan hüquqları, milli təhlükəsizlik və davamlı inkişaf baxımından strateji əhəmiyyət daşıyır və bu sahədə beynəlxalq sənədlərdə nəzərdə tutulan əməkdaşlıq prinsipləri Azərbaycan tərəfindən milli siyasətdə ardıcıl şəkildə həyata keçirilir.

Bahar Muradova uşaqların rəqəmsal mühitdə müdafiəsində ailənin rolu, eləcə də ailə daxilində etibarlı və açıq ünsiyyət mühitinin qurulmasının vacibliyini vurğulayıb, valideynlərin rəqəmsal savadlılığının artırılmasının mühüm prioritetlərdən biri olduğunu qeyd edib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev çıxışında uşaqlar üçün internet imkanlarının tam şəkildə faydaya çevrilməsinin dövlət və valideynlərin birgə əməkdaşlığından asılı olduğunu dilə gətirib. Nazir Azərbaycan dövlətinin uşaqların rəqəmsal mühitdə təhlükəsiz və səmərəli inkişafını dörd əsas mərhələdə gördüyünü bildirib və əlavə edib ki, bunlar uşaqların internetə çıxış imkanlarının tam şəkildə təmin edilməsi, onlara rəqəmsal təhsilin verilməsi, normativ və hüquqi bazanın formalaşdırılması, həmçinin kiberməkanın dövlət tərəfindən tənzimlənmə mexanizmlərinin müəyyən olunmasıdır.

Açılış mərasimində çıxış edən İran İslam Respublikasının nümayəndə heyətinin rəhbəri Zəhra Pezeşkian,Türkiyə Respublikasının ailə və sosial xidmətlər naziri Mahinur Özdemir Göktaş, Mərakeş Krallığının həmrəylik, sosial inteqrasiya və ailə naziri Naima Ben Yahya, Şimali Kipr Türk Cümhuriyyətinin əmək və sosial müdafiə naziri Oğuzhan Hasipoğlu, Qətər Dövlətinin Sosial İnkişaf və Ailə Nazirliyinin ailə məsələləri üzrə köməkçi katibi Şeyxa Şaika bint Casim Al Thani, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva, BMT-nin Uşaq Hüquqları Komitəsinin sədri Sofiya Kiladze, İSESKO-nun baş direktoru Salim Al Malikin müşaviri Amira Al Fadil uşaqların rəqəmsal hüquqlarının qorunması üçün beynəlxalq əməkdaşlığın gücləndirilməsinin və güclü beynəlxalq mexanizmlərin formalaşdırılmasının vacibliyini qeyd ediblər, öz ölkələrinin bu sahədə təcrübələrini bölüşməyə hazır olduqlarını diqqətə çatdırıblar.

Çıxışlarda rəqəmsal mühit və süni intellekt dövründə uşaqların hüquqlarının qorunmasının dövlətlərin aparıcı rolu və beynəlxalq əməkdaşlıq olmadan mümkün olmadığı vurğulanıb.

Açılış nitqləri dinlənildikdən sonra konfrans panel sessiya ilə davam edib.

Qeyd edək ki, konfransda yerli və xarici dövlət qurumlarının nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri, mütəxəssislər və ekspertlər iştirak edirlər.